AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ
PENİTENSİAR XİDMƏTİN
17 saylı CƏZAÇƏKMƏ MÜƏSSİSƏSİ
AZ–1045, Xəzər rayonu Binə q. Tel.: 456-09-97; Faks (+99412) 456-09-97

«21» 05 2026-cı il № 3-16-17/33/2-1371/2026

Azərbaycan Respublikası Vəkillər Kollegiyasına

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 17 saylı Cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum Rəhimov Rauf Rauf oğlu tərəfindən yazılmış ərizə Sizə təqdim edilir.

Qoşma; 03 vərəq

Hörmətlə,

Rəis
ədliyyə polkovnik-leytenantı Şəfahət Abbasov

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2244
«01» 06 2026

Azərbaycan Respublikası
Vəkillər Kollegiyasının
Rəyasət Heyətinin Sədri
Cənab Anar Bağırova

Penitensiar Xidmətin 17
Saylı cəzaçəkmə müəssisəsində
cəza çəkən məhkum
Rəhimov Rauf Rauf oğlu
tərəfindən

ərizə

Hörmətli cənab Sədr!

Yazıb Sizə bildirirəm ki, Xəzər Rayon Məhkəməsinin qərarından verdiyim apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsində baxılarkən dövlət büdcəsi vəsaiti hesabına Vəkil Kazımi Elçin Oqtay oğlu təyin edilmişdir.

Belə ki, Vəkil Elçin Kazımi mənimlə heç bir müqaviləsinin olmamasına baxmayaraq, bütün məhkəmə proseslərində məni yüksək peşəkarlıqla müdafiə etmiş, onlarla vəsatətlər vermiş, öz təşəbbüsü ilə apellyasiya şikayətinə əlavə vermiş, hətta istintaq təcridxanasında mənimlə görüşərək işi müzakirə etmişdik.

Vakilin bu cür yanaşması sözün əsl mənasında mani "şoka" salmış və qalan cəzamı (cəsamin sonuna 2 il 3 ay qalıb) çəkməyimə stimul yaratmışdır.

Hazırda 12 ildən artıqdır cəza çəkirəm, bu müddət ərzində müxtəlif vəkillərim olmuşdur, lakin onlar belə mənim işimə bu cür həssaslıqla yanaşmamışdılar.

Düzünü desəm ölkəmizdə vəkillik institutunun bu cür inkişaf etməsindən məlumatsız idim...

Fürsətdən istifadə edib, vəkillərin müxtəlif peşəkarlıqla işə yanaşdıqları üçün Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli Anar müəllim!

Samimi olaraq bildirirəm ki, Siz bunu bacardınız. Vətəndaşların vəkillərə qarşı inamını bərpa etdiniz...

Qeyd edim ki, hazırda Bakı Apellyasiya Məhkəməsinin məlum qərarından həssasiyyə şikayəti vermək arzusundayam.

Belə ki, vəkil Elçin Kazımi həzirki işi dərindən öyrənmişdir, yəni işin

detalları ona məlumdur və belə olan halda kassasiya şikayətini ondan yaxşı heç kim hazırlaya bilməz.

Odur ki, qeyd olunanları nəzərə alıb, Vəkil Elçin Kazımi tərəfindən kassasiya şikayətinin hazırlamasına mənə köməklik etməyinə və kassasiya instansiyası Məhkəməsində dövlət büdcəsi vəsaiti hesabına məni müdafiə etməsinə icazə verməyinizi, eləcədə Apellyasiya Məhkəməsində göstərdiyi diqqətə layiq hərəkətlərinə görə vəkil Elçin Kazımiyə təşəkkür etməyinizi Sizdən xahiş ediram.

Hörmətlə,
Rauf R. Rəhimov 18.05.2026-cıil